Tarix fakültəsi - 105

UOT 94(479.24)

**ALMAZ ZÜLFƏLİ QIZI**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti,*
**almaz.z@mail.ru**

**AZAD RZAYEV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti*
**azad_rzayev@mail.ru**

# ALİM VƏ VƏTƏNDAŞ ZÜLFƏLİ İBRAHİMOV

DOI: https://doi.org/10.36719/2708-065X/106/105-109

*Professor Zülfəli İmaməli oğlu İbrahimov - Azərbaycanın görkəmli alimi, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü və eyni zamanda SSRİ Jurnalistlər İttifaqının üzvü olmuşdur. Onun həyat yoluna, elmi fəaliyyətinə nəzər salarkən Azərbaycan tarixinə nə qədər böyük töhfələr verdiyini aydın şəkildə görmək olur. Ümumiyyətlə, Z.İbrahimov Azərbaycan xalqının tarixi ilə bağlı mühüm məsələlərin tədqiqi, Azərbaycan tarixşünaslığının zənginləşdirilməsi istiqamətində yorulmadan çalışan alim idi. Onun hər bir əsərində Azərbaycanın qədim zamanlardan qəhrəmanlar, mübarizlər ölkəsi olması, kişilərlə yanaşı, Azərbaycan qadınlarının da düşmənə qarşı daim böyük mətanətlə vuruşması aydın şəkildə əksini tapıb.*

*Açar sözlər:* Zülfəli İbrahimov, Alim, Azərbaycan Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi kafedrası, SSRİ jurnalistlər İttifaqı.



***Giriş.*** Azərbaycanın görkəmli alimi, Azərbaycan EA-nın müxbir üzvü, tarix elmləri doktoru, həmçinin Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü və eyni zamanda SSRİ jurnalistlər İttifaqının üzvü professor Zülfəli İmaməli oğlu İbrahimov. Onun həyat fəaliyyəti və yaradıcılıq dövrünə nəzər salsaq Azərbaycan tarixinə nə qədər töhvə verdiyinin şahidi olarıq. Ümumiyyətlə Zülfəli İbrahimov Azərbaycan xalqının tarixinə dair vacib məsələlərin tədqiqində, Azərbaycan tarixşünaslığının zənginləşdirilməsində yorulmadan çalışan alim olmuşdur.

Onun hər bir əsərində Azərbaycan ən qədim zamanlardan bəri qəhrəmanlar, pəhləvanlar və cəngavərlər ölkəsi olması, kişilərlə yanaşı Azərbaycan qadınlarını da düşmənə qarşı həmişə böyük inadla mübarizəsi qabarıq formada əks edilib.

Azərbaycanın görkəmli alimi, Azərbaycan EA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Zülfəli İmaməli oğlu İbrahimov 1910-cu il dekabrın 25-də Cənubi Azərbaycanın Sərab şəhərində anadan olmuşdur. 1920-ci ildən ailəsi ilə birlikdə Bakıya köçmüş və burada təhsil almışdır. 1932-ci ildə Zülfəli İbrahimov Ümumittifaq Jurnalistlər İnstitutunda oxumaq üçün Moskvaya göndərilmiş və

1935-də İnstitutu bitirdikdən sonra Bakıya qayıdaraq, «Kommunist», «Nuxa fəhləsi», «Yeni yol», «Gənc işçi» və b. qəzet redaksiyalarında məsul vəzifələrdə çalışmışdır. 1936-1937-ci tədris ilindən isə ömrünün sonuna kimi Z.İbrahimov Azərbaycan Dövlət Universitetində pedoqoji fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının təşkili də onun adı ilə bağlıdır. Belə ki, sovet dövründə milli respublikalarin tarixinin öyrənilməsi və tədrisinə çox saylı əngəllərin olduğu bir şəraitdə o, Universitetdə Azərbaycan tarixi kafedrasının açılmasına nail olmuşdur. Zülfəli İbrahimov həmin kafedranın müdiri, Universitetin tarix fakültəsinin dekanı, 1960-1967-ci illərdə isə Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun direktoru vəzifələrində işləmişdir.

Professor Zülfəli İbrahimov elmi fəaliyyətinin ilk dövrünü Azərbaycan xalqının mühüm tarixi problemlərinin tədqiqinə həsr etmişdir. O, 1930-1940-cı illərdə «Qədim Azərbaycan cəmiyyəti», «Babək üsyanı», «X-XII əsrlərdə Azərbaycanın sosial-siyasi vəziyyəti», «Zaqafqaziya xalqlarının sasanilərə qarşı mübarizəsi», «Sasanilər dövründə Azərbaycanın sosial-iqtisadi həyatı» adlı elmi məqalələr alimin qələminin ilk məhsuludur. Həmin əsərlərdə Zülfəli müəllim Azərbaycanda ictimai-iqtisadi münasibətlərdən, Azərbaycan xalqının azadlıq mübarizəsindən bəhs etmişdir. Ümumiyyətlə Zülfəli İbrahimov Azərbaycan xalqının tarixinə dair vacib məslələrin tədqiqində, Azərbaycan tarixşünaslığının zənginləşdirilməsində yorulmadan çalışmış, elmi-tədqiqat fəaliyyətinin dairəsi çoxtərəfli və məhsuldar olmuşdur.

1941-ci ildə Zülfəli İbrahimov Azərbaycan Dövlət Universitetində öz xalqının qəhrəmanlıq tarixinə - «Ərəb işğalçılarına qarşı Azərbaycan xalqının mübarizəsi»nə həsr etdiyi namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir və tarix elmləri namizədi alimlik dərəcəsini alır. O, tarix elmləri sahəsində belə bir dərəcəni alan ilk azərbaycanlılardan biri olmuşdur.

Tarix elminin inkişafında müstəsna xidmətləri olan Zülfəli İbrahimovun SSRİ-nin vətən müharibəsi dövründəki fəaliyyəti də xüsusi qeyd edilməlidir. Belə ki, o dövrdə respublikanın yaradıcı, elmi və texniki ziyalıları ayrı-ayrı qəzetlərin hazırlanmasına cəlb edilirdilər: Səməd Vurğun, Rəsul Rza, Mehdi Hüseyn, Əhməd Cəmil, Mirzə İbrahimov, Mir Cəlal, İlyas Əfəndiyev, Vahid, Heydər Hüseynov, İsmayıl Hüseynov, Zülfəli İbrahimov və b. müharibənin ağır günlərində onların vətənpərvər kəsərli yazıları insanlarda ruh yüksəkliyi, qələbəyə inam yaradırdı. Bu da çox vacib idi. Həmin ağır illərdə qəzetə əlavə olaraq "Təbliğatçının bloknotu" nəşr edilir və yayılırdı. Zülfəli İbrahimov 1941-1942-ci illərdə Urmiya şəhərində Zaqafqaziya cəbhəsinin 15-ci Qafqaz korpusunun 23-cü diviziyasında «Qızıl əsgər» qəzetinin məsul redaktoru işləmişdir. Vətənə məhəbbət, düşmənə qarşı qəzəb və nifrət duyğuları aşılayan çoxsaylı qəzet və jurnal məqalələri ilə yanaşı Zülfəli İbrahimov «Döyüşkən Azərbaycan xalqı», «Azərbaycan qadınlarının qəhrəman keçmişindən» [2], «Yazıçılar və tarixçilər azərbaycanlıların mərdliyi və şücaəti haqqında» və s. kimi elmi kütləvi kitabçalar da yazmışdır. Bu əsərlərdə müəllif göstərirdi ki, bizim doğma vətənimiz Azərbaycan ən qədim zamanlardan bəri qəhrəmanlar, pəhləvanlar və cəngavərlər ölkəsi olmuşdur. Kişilərlə yanaşı Azərbaycan qadınları da tariximizin ən uzaq keçmişindən bəri düşmənə qarşı həmişə böyük inadla mübarizə aparmış, xalq içərisindən bir çox qəhrəman mübarizlər, ağıllı dövlət xadimləri, görkəmli sənətkarlar, alim və şairlər yetişmiş və tarix səhnəsinə çıxa bilmişlər.

İlk dəfə Azərbaycan tarixşünaslığında xalq qəhrəmanı Babəkin rəhbərliyi altında azadlıq mübarizəsi Zülfəli İbrahimovun 1942-ci ildə yazdığı «Azərbaycan xalqının ərəb işğalçılarına qarşı mübarizəsi» və iki il sonra (1944) qələmə aldığı «Babək» əsərlərində [3] Xilafətə qarşı mübarizə hərtərəfli şərh və təhlil edilmişdir. Məhz Zülfəli İbrahimov ilk dəfə olaraq, bu əsərlərində ərəb tarixçilərinin əsərlərinə istinad edərək, qeyd etmişdir ki, xürrəmilər bütün insanları irqi və dini mənsubiyyətindən asılı olmayaraq bərabər hesab edirdilər. Zülfəli İbrahimov eyni zamanda yazırdı ki, Babəkin özünün islam dinini qəbul etmədiyinə baxmayaraq, Azərbaycanda və öz üsyançı qoşununda olan müsəlmanlara dini cəhətdən heç bir təzyiq göstərmirdi. Əksinə olaraq, Babək, öz Bəzz mahalında müsəlmanlar üçün məscidlər tiktirmiş və onların övladlarının həmin məscidlərdə oxutdurmasına şərait yaratmışdır.

Zülfəli İbrahimov bu yazılarında Azərbaycan xalqının qəhrəman övladlarını təqdir və tərənnüm etməklə onların timsalında milləti, torpağı sevməyə, vətənin tərəqqisi naminə çalışmağa, onun müdafiəsi üçün həmişə hazır olmağa, vətənə xəyanət edənlərə qarşı barışmaz mübariz olmağa çağırırdı.

Həmin əsərlər bugün də çox aktualdır və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün böyük əhəmiyyət kəsb edir.

Zülfəli İbrahimov «Nizami dövründə Azərbaycan mədəniyyəti» (1947-ci il) adlı kitabçasında isə [4] Nizami dövründə Azərbaycan mədəniyyətinin, ədəbiyyatının və incəsənətinin öz dövrünə görə parlaq surətdə inkişaf etdiyini göstərirdi. Zülfəli İbrahimov əsərində qeyd edirdi ki, Azərbaycanda Nizami dövrünün ictimai-siyasi hadisələrinin dolğunluğu, zənginliyi, dövlət həyatı, parlaq mədəni inkişafı ilə nəinki Azərbaycan tarixinin, eləcə də dünya xalqları tarixinin ən gözəl səhifələrindən birini təşkil edir.

Zülfəli İbrahimov 1948-ci ildə «1917-1918-ci illərdə Azərbaycanda Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə» mövzusunda doktorluq dissertasiyasını müdafiə edir və Ali Attestasiya Komissiyasının 25 fevral 1950-ci il qərarı ilə tarix elmləri doktoru elmi dərəcəsini və 17 iyun qərarı ilə professor adını almışdır. 1959-cu ildə isə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdi [1]. O, eyni zamanda SSRİ jurnalistlər İttifaqının üzvü idi.

Elmi fəaliyyətinin sonrakı mərhələsində Zülfəli İbrahimov burjua-demokratik, sosialist inqilabı, xarici hərbi müdaxilə, vətəndaş müharibəsi tarixinin tədqiqi və sair mühüm problemlərin araşdırılması ilə məşğul olmuşdur. Bu silsilədən «İngilis-amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi» [5], «Azərbaycanda 1905-1907-ci illər inqilabı» [6], «Azərbaycan zəhmətkeşlərinin sosialist inqilabı uğrunda mübarizəsi» [7], «Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi» [10] və s. əsərlərini nəşr etdirmişdi.

Zülfəli İbrahimov üç cildlik «Azərbaycan tarixi» [8], «Zaqafqaziyada Sovet hakimiyyətinin qələbəsi» [11], «Azərbaycan Kommunist Partiyası tarixinin» 1 cildi, «Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri» [9], həmçinin «Zaqafqaziya kommunist təşkilatları tarixinin oçerkləri» kimi sanballı, ümumiləşdirici əsərlərin əsas müəlliflərindəndir.

Respublika tarix elmini keçmiş ittifaq miqyasında ləyaqətlə təmsil etmiş Zülfəli İbrahimov tarixçilərin bir çox yüksək elmi məclislərinin və beynəlxalq konqreslərin fəal iştirakçısı olmuşdur. O, Azərbaycan xalqının çoxəsrlik tarixinin ən görkəmli tədqiqatçılarından biri kimi Respublikamızın hüdudlarından kənarda belə geniş şöhrət qazanmış, öz iti və kamil jurnalistlik qələmi ilə Azərbaycan xalqının səadəti naminə yorulmadan iş aparmış, çoxlu kadrlar, ictimai elmlər, xüsusilə tarix elmi sahəsində müvəffəqiyyətlə çalışan bütöv bir alimlər dəstəsi yetişdirmişdir.

Uzun illər Azərbaycan Dövlət Universitetində Vətən tarixindən ümumi və xüsusi kurslar aparan professor Zülfəli İbrahimov insanlara xeyirxahlıqla yanaşır, onlara qayğı göstərirdi. Təsadüfi deyil ki, onun rəhbərliyi ilə 80-ə qədər namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir.

Prof. Z.İbrahimov Azərbaycan EA nəzdində elmi əlaqələndirmə şurasının sədri, ictimai elmlər üzrə birləşmiş redaksiya nəşriyyat şurasının, ictimai elmlər üzrə birləşmiş müdafiə elmi şurasının, tarix bölməsi üzrə müdafiə elmi şurasının, ADU-nun və tarix fakultəsi elmi şuralarının üzvü olmuşdur. O, respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edirdi.

Zülfəli İbrahimov 1972-ci il sentyabrın 21-də vəfat etmiş və fəxri xiyabanda dəfn edilmişdir. Lakin o, dünyasını dəyişsə də böyük tarixi bir irs qoyub getmişdir. Bu irsi qoruyub saxlamaq, onu uca tutmaq, hörmətlə yad etmək və öyrənmək hər birimizin borcudur.

***Nəticə.*** Dövlət və xalq onun əməyinə yüksək qiymət vermişdir. Zülfəli İbrahimov Oktyabr inqilabı, Şərəf nişanı ordeni, bir çox medallar və fəxri fərmanlarla təltif olunmuşdur, Azərbaycan SSR dövlət mükafatı laureatı adına layiq görülmüşdür. Professor Zülfəli İbrahimov 400-ə qədər elmi məqalə və əsərin müəllifi kimi bütün ömrünü elmin inkişafına həsr etmişdir.

## ƏDƏBİYYAT

1. İbrahimov Zülfəli İmaməli oğlu / Azərbaycan Milli Elmlər Akademiyası. Azərbaycanın ilk veb saytı (1995). - https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3420 [01.10.2024]
2. İbrahimov Z. Azərbaycan qadınlarının qəhrəman keçmişindən. Bakı, Azərnəşr, 1943, 48 s.
3. İbrahimov Z. Babək. Red. Ə.Dadaşlı. Bakı, Azərnəşr, 1944, 56 s.

4. İbrahimov Z. Nizami dövründə Azərbaycan mədəniyyəti. Mühazirələr üçün vəsait / Azərb. SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin Mərkəzi Mühazirə Bürosu. Bakı, 1947, 12 s.
5. İbrahimov Z. İngilis-amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi: 1918-1920-ci illər. Bakı, Uşaqgəncnəşr, 1950, 113 s.
6. Ибрагимов З. Революция 1905-1907 гг. в Азербайджане. Баку, Азернешр, 1955, 263 с.
7. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, Azərnəşr, 1957, 585s.
8. Ибрагимов З. История Азербайджана. Т.1-3. Баку, 1958-1963.
9. Ибрагимов З. Очерки истории Коммунистической партии Азербайджана. Баку, 1963.
10. İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı, Azərnəşr, 1970, 526 s.
11. Ибрагимов З. Победа советской власти в Закавказье. Гл.ред. И.И.Минц. Тбилиси, Мецниереба, 1971, 682 с.

**АЛМАЗ ЗУЛЬФАЛИ КЫЗЫ**
*Доктор философии по истории,*
*доцент Бакинского Государственного Университета*

**АЗАД РЗАЕВ**
*Доктор философии по истории,*
*доцент Бакинского Государственного Университета*

## УЧЕНЫЙ И ГРАЖДАНИН ЗУЛЬФАЛИ ИБРАГИМОВ

Профессор Зульфали Имамали оглы Ибрагимов, видный учёный Азербайджана, член-корреспондент ЭА Азербайджана, доктор исторических наук, член-корреспондент Академии наук Азербайджанской ССР и одновременно член Союза журналистов СССР. Если мы посмотрим на его жизненный путь и научную деятельность мы увидим то, какой большой вклад он внес в историю Азербайджана. В целом З.Ибрагимов был учёным, неустанно работавшим над исследованием важных вопросов, связанных с историей азербайджанского народа, над обогащением азербайджанской историографии. В каждом его произведении ярко отражено то, что Азербайджан издревле был страной героев и борцов то, что азербайджанские женщины наравне с мужчинами всегда с большим упорством сражались против врага.

*Ключевые слова:* Зульфали Ибрагимов, Азербайджанский государственный университет, исторический факультет, кафедра истории Азербайджана, Союз журналистов СССР.

**ALMAZ ZULFALI KIZI**
*Doctor of Philosophy in History,*
*Associate professor of Baku State University*

**AZAD RZAEV**
*Doctor of Philosophy in History,*
*Associate professor of Baku State University*

## SCIENTIST AND CITIZEN ZULFALI IBRAHIMOV

Professor Zulfali Imamali oglu Ibragimov, a prominent scientist of Azerbaijan, corresponding member of the Azerbaijan Academy of Sciences, Doctor of Historical Sciences, corresponding member of the Academy of Sciences of the Azerbaijan SSR and at the same time a member of the Union of Journalists of the USSR. If we look at his life activity and creative period, we will witness what a great contribution he made to the history of Azerbaijan. In general, Z.Ibrahimov was a

scientist who worked tirelessly to study important issues related to the history of the Azerbaijani people and to enrich Azerbaijani historiography.

Each of his works clearly reflects the fact that Azerbaijan has been a country of heroes, fighters and knights since ancient times, and that Azerbaijani women, along with men, have always fought against the enemy with great tenacity.

*Keywords:* Zulfali Ibragimov, Azerbaijan State University, Faculty of History, Department of History of Azerbaijan, Union of Journalists of the USSR.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*